

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 145 (24.282)

*12 avqust 2023-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycanın kənd təsərrüfatı naziri Naxçıvanda olub, vətəndaşları qəbul edib



Avqustun 11-də Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədov Naxçıvan Muxtar Respublikasına səfər edib. Nazir əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstələri düzüb.

Səfər çərçivəsində kənd təsərrüfatı naziri Süni Mayalanma Mərkəzində yaradılan şəraitlə də tanış olub, laboratoriya otağı, yem anbarı, tövlə, açıq havada yemsaxlama sahəsinə və inzibati binaya baxış keçirib. Məlumat verilib ki, ölkə başçısının 2018-ci ilin fevralında imzaladığı "Naxçıvan Muxtar Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" və 2019-cu ilin noyabrında imzaladığı "Naxçıvan Muxtar Respublikasında Süni Mayalanma Mərkəzinin yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncamlarına əsasən yaradılan mərkəzin tikintisi 2 hektar ərazidə aparılıb. Burada inzibati bina, karantin binası, baytarlıq klinikası, laboratoriya otağı, toxumalma sahəsi, tövlə, yem anbarı, açıq havada yemsaxlama sahəsi yaradılıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Süni Mayalanma Mərkəzinin açılışı olub. Qeyd edilib ki, ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində görülən tədbirlər sırasında heyvandarlığın inkişafı mühüm yer tutur. Bu məqsədlə damazlıq işinin düzgün qurulması və cins tərkibinin yaxşılaşdırılması diqqətdə saxlanılır, səmərəli metod kimi süni mayalanma tədbirlərinə geniş yer verilir. Ötən ilin rəsmi statistikası düzgün aparılmadığından dəqiq məlumat olmasa da, təxminən, Naxçıvanda 100 minə yaxın heyvan vardır ki, onun da 60-70 mini iribuynuzludur. Süni Mayalanma Mərkəzində mayalanan inəklərdən son 6 ayda 52 baş bala alınıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll olunması üçün tədbirlər görürlər. Tərtib edilən qəbul cədvəlinə müvafiq olaraq Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədov Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin inzibati binasında Naxçıvan şəhəri və muxtar respublikanın rayonlarından olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.





Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda vətəndaşların müraciəti, əsasən, əkin sahələrinin təsərrüfat suyu ilə təmin olunması, işlə təminat, kənd təsərrüfatı texnikasının lizinq yolu ilə əldə olunması, sığorta hadisəsi zamanı dəymiş ziyanın ödənilməsi və digər məsələlərlə bağlı olub. Nazir Məcnun Məmmədov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib. Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb. Nazir vətəndaşlarla görüş zamanı dövlət başçısının kənd təsərrüfatının inkişafı ilə bağlı imzaladığı sərəncamların kənd təsərrüfatı istehsalçılarının rifah halının yaxşılaşdırılmasına və ölkəmizdə bu sahənin inkişafına təkan verəcəyini vurğulayıb. Qəbula gələn vətəndaşlar göstərilən diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**Nail ƏSGƏROV**

## Səfərin ikinci günü maraqlı və yaddaqalan olub

*Xəbər verdiyimiz kimi, avqustun 10-da Çin Xalq Respublikasının Çunçin şəhərinin Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin sədr müavini Çuy Çyanın başçılıq etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfər edib.*

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ilə görüş Azərbaycanın həm siyasi, həm də iqtisadi baxımdan ən strateji bölgələrindən olan Naxçıvan Muxtar Respublikası ilə Çin Xalq Respublikasının ən iri sənaye bölgəsi olan Çunçin şəhəri arasında dostluq və əməkdaşlıq əlaqələrinin gələcək inkişafı baxımından yaddaqalan olub. Naxçıvan Şəhər İcra Hakimiyyətində keçirilən görüş də əməkdaşlığın yeni mərhələyə qədəm qoyacağını bir daha təsdiq edir.





Maraqlı və yaddaqalan ikigünlük səfərin ikinci günündə qonaqlar Naxçıvan Şəhər İcra Hakimiyyəti rəsmilərinin müşayiəti ilə əvvəlcə Duzdağ Fizioterapiya Mərkəzində olublar. Mərkəz barədə onlara ətraflı məlumat verilib. Diqqətə çatdırılıb ki, Duzdağ mağaraları 1173 metr hündürlükdə və komfortlu, rahat hoteldən cəmi iki kilometr məsafədə yerləşir. Tənəffüs yolları xəstəliklərinin müalicəsi üçün yaradılmış və hər bir şəraitlə təchiz olunmuş Fizioterapiya Mərkəzi yeraltı və yerüstü hissələrdən ibarətdir. Bildirilib ki, mərkəzin yerüstü hissəsi Duzdağın bilavasitə özündə, "Duzdağ" hotelin ərazisində yerləşir. Yeraltı hissə isə dağda 300 metrdən artıq dərinlikdə yerləşir. Kompleks, ümumilikdə, 150-yə yaxın qonaq qəbul etmək imkanına malikdir.

Duzdağ Fizioterapiya Mərkəzi ilə tanışlıqdan sonra qonaqlar muxtar respublikada fəaliyyət göstərən Naxçıvan Avtomobil Zavoduna ekskursiya ediblər. "Cahan Holdinq"in prezidenti, Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasovun da iştirakı ilə baş tutan tanışlıq qonaqlarda böyük maraq doğurub. Zavod barədə onlara ətraflı məlumat verilib. Qeyd olunub ki, 2010-cu ildən fəaliyyət göstərən zavodda Almaniya, İtaliya və Belçikadan gətirilmiş müasir texnoloji avadanlıqlar quraşdırılıb. İstehsal prosesi konveyer üsulu ilə təşkil edilən müəssisədə "NAZ-Lifan" markası ilə istehsal olunan avtomobillər ilk vaxtlar baqaj hissəsi salonda olan (xetçbek) "320" və baqaj bölməsi salondan kənarda yerləşən (sedan) "620" modellərindən ibarət olub. 2014-cü ildən isə "NAZ-Lifan" markalı avtomobillərin "330", "630" və "720" modellərinin kütləvi istehsalına başlanılıb. Sonradan isə istər texniki göstəriciləri, istərsə də keyfiyyət baxımından daha komfortlu "NAZ-Lifan" markalı avtomobillərin "NAZ-Lifan X-50", "NAZ-Lifan-820" modellərinin istehsalına başlanılıb. Həmçinin qeyd edilib ki, illik istehsal gücü beş min olan zavodda yeni "Maple X3 PRO" avtomobilləri də artıq alıcılara təqdim edilib. Ekskursiyanın sonunda "Cahan Holdinq"in prezidenti, Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov tərəfindən Çunçin şəhərinin Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin sədr müavini Çuy Çyana milli atributlarla işlənmiş miniatür xalça hədiyyə edilib. Sədr müavini Çuy Çyan tərəfindən Çunçin şəhərinin qida sektorunda önəmli yerə malik olan məşhur qırmızı qızıl çayı Vüqar Abbasova təqdim olunub. Qonaqlar gələcəkdə Naxçıvan Muxtar Respublikası ilə qurulacaq geniş biznes əlaqələrindən danışıblar.

Naxçıvan Biznes Mərkəzi ilə tanışlıq zamanı bildirilib ki, 2013-cü ildən istifadəyə verilən mərkəzin əsas iş istiqamətləri biznesin inkişafı məqsədilə sahibkarların maarifləndirilməsi, onlar arasında işgüzar əlaqələrin gücləndirilməsi, beynəlxalq və yerli əhəmiyyətli tədbirlərin, o cümlədən konfransların, forum və seminarların keçirilməsi, yerli istehsal məhsullarının, əl işlərinin sərgi və satışının təşkilindən ibarətdir. Ümumi sahəsi 2000 kvadratmetr olan mərkəzdə beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılıb. Sərgi ilə tanışlıq məqsədilə gələn ziyarətçilərə ixtisaslı kadrlar tərəfindən xidmət göstərilir. Həmçinin mərkəzin sərgi salonunda muxtar respublika iqtisadiyyatının dinamik inkişafını əks etdirən əsas sosial-iqtisadi göstəricilərin və son illər ərzində istifadəyə verilmiş mühüm infrastruktur obyektləri haqqında məlumatların əks olunduğu tablolar, eləcə də muxtar respublikada fəaliyyət göstərən 78 emal və xidmət müəssisəsi tərəfindən istehsal olunan məhsulların nümayişi həyata keçirilir. Həmçinin mərkəzdə sərgilənən muxtar respublika rəssamlarının rəsm əsərləri və yerli sənətkarların dekorativ-tətbiqi sənət, dulusçuluq, ağac üzərində oyma işləri ziyarətçilərin zövqünü oxşayır. Qeyd edək ki, mərkəzdə müxtəlif sərgilər də təşkil olunur.

Səfərin sonunda qonaqlar "Cahan" Sənaye Kompleksi ilə yaxından tanış olublar, burada gedən iş prosesi, istehsalat təcrübəsi, o cümlədən kompleksin istehsal gücü ilə maraqlanıblar.

Qeyd edək ki, iki gün davam edən səfər dünən başa çatıb.

**Məcid RƏŞADƏTOĞLU**

## Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini vəzifəsindən azad edilib

Avqustun 11-də imzalanan Sərəncamla Əhmədova Heyran Rüstəm qızı Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini vəzifəsindən azad edilib.

Bu barədə Sərəncamı Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov imzalayıb.

## Naxçıvanda böyük yaşayış kompleksi tikiləcək



Naxçıvan şəhərinin Heydər Əliyev prospektində – Naxçıvan Muxtar Respublikası Perinatal Mərkəzin yaxınlığındakı 6,6 hektarlıq boş ərazidə 21 yaşayış binasından ibarət "Nakhchivan Residence"in – "Naxçıvan yaşayış kompleksi"nin inşası planlaşdırılıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən aldığımız məlumata görə, yeni layihə çərçivəsində 2, 3 və 4 otaqdan ibarət 5-9 mərtəbəli binalarda 1100 mənzil inşa ediləcək. Binaların birinci mərtəbəsi qeyri-yaşayış sahəsi olacaq və əsasən, xidmət sahələri üçün nəzərdə tutulub. Kompleksdə yeraltı və yerüstü avtodayanacaq, uşaq meydançası, basketbol və voleybol meydançaları, yeraltı içməli su anbarları və digər yardımçı sahələr istifadəyə veriləcək. 2023-cü ilin sonuna başlanması nəzərdə tutulan tikinti işlərində 700-dən artıq muxtar respublika sakini çalışacaq.

Avropa texnologiyalarına uyğun dizayn edilmiş, şəhərin ən əlverişli yerində və ictimai nəqliyyat yollarına yaxın yaşayış kompleksinin tikintisinin birinci mərhələsi 2 ilə, ikinci mərhələsi isə 4 ilə tamamlanacaq.

**Xəbərlər şöbəsi**

*2023-cü il “Heydər Əliyev İli”dir*

# Heydər Əliyev irsi gələcək nəsillərə Vətənə sədaqət örnəyidir




*Tarixdə mövcud olan dövlətlər və xalqlar özlərinin maddi sərvətləri və siyasi qüdrətlərindən çox özündən sonra böyük izlər qoymuş, möhtəşəm işlər görmüş tarixi şəxsiyyətləri ilə tanınırlar. Çünki zamanın istər intibah, istərsə də böhran dönəmlərində millətin və xalqın tale yolu görkəmli tarixi şəxsiyyətlərin fəaliyyəti ilə müəyyənləşir. Zamanın çağırışına cavab verənlər isə böyük şəxsiyyətlərdir. Böyük şəxsiyyətlər olduqca mürəkkəb və taleyüklü məsələləri həll etmək, vətəni xilas etmək üçün tarixin ən həlledici məqamında meydana çıxırlar.*

Azərbaycanda tarixi ənənələrdən, milli-mənəvi keyfiyyətlərdən bəhrələnərək ölkəsini dünyanın nüfuzlu təsisatlarına inteqrasiya yolu ilə inkişaf etdirmək, xalqının milli hüquqlarını, tarixi haqlarını həyata keçirmək kimi şərəfli missiyanı çiyinlərinə götürən, yeni dünya sisteminin düzənləndiyi və onun yeni idarəetmə formasının meydana gəldiyi bir dövrdə sərt taleyüklü məsələləri həll etməyi bacaran tarixi şəxsiyyətlərin varlığı hər bir azərbaycanlının qürur mənbəyidir. Bu mənada, Heydər Əliyev çox böyük maneələri dəf edərək ən uca zirvələri fəth etməyi bacaran nadir tarixi simadır. Tariximizin son yetmiş ili bu parlaq zəka sahibinin adı ilə bağlıdır. Çünki Onun bütün həyat amalı, fəaliyyətinin bütün dövrü milli-mənəvi inkişafımızın tərkib hissəsi olan milli özünüdərkin, milli birlik ideyasının, milli qürurun, ləyaqətin, məsuliyyət hissinin, vətəndaşlıq duyğularının qədim tarixə, yüksək mədəniyyətə, intellektual səviyyəli cəmiyyətə malik xalqımızın öz mənliyinə sahib olmaq haqqının formalaşmasına təkan vermişdir.

Zəkasının qürdəti ilə bir insan ömrünə sığmayan işlər görən dahi Heydər Əliyev sovet ideologiyasının hakim olduğu bir dövrdə də, ziddiyyətlərlə dolu taleyüklü məsələlərin meydana gəldiyi dövrdə də, bütün çətinliklərə sinə gərərək qəhrəmanlıq nümunəsi göstərmiş, xalqın rifahı üçün çalışmış, ölkəmiz əsrə bərabər inkişaf yolu keçmişdir. Müstəqil dövlətçiliyin qorunub saxlanmasının, vətəndaş birliyinin yaradılmasının milli-mənəvi və konseptual əsaslarını da məhz Ulu Öndər Heydər Əliyev bərqərar etdi. Dahi şəxsiyyət əhalini vahid ideologiya və müstəqil dövlət ətrafında birləşdirməyi bacardı.

Bu gün böyük fəxr hissi ilə deyə bilirik ki, XX əsrin son qərinəsində dövlətçiliyimizin bənzərsiz memarı, xalqımızı dünyada tanıdan böyük düha Heydər Əliyevdir.

Böyük siyasət ustadı, dahi şəxsiyyət Heydər Əliyevin həyat fəaliyyəti siyasi-mənəvi tariximizdə elə bir uca zirvədir ki, o zirvənin əzəmətini, böyüklüyünü bugünkü övladlarımıza, gələcək nəsillərə çatdırmaq, layiqincə tanıtdırmaq təhsil-tərbiyə işçiləri qarşısında duran başlıca vəzifələrdən biridir. Ulu Öndər Heydər Əliyev ruhi-daxili aləmi, sözü və əməli, fikir və düşüncələri, humanistliyi, əqidəliliyi və iradi keyfiyyətləri ilə xalqına, Vətəninə bağlılığı ilə özünə qarşı sonsuz məhəbbət oyatmış, dövlət və dövlətçilik siyasətinin bütün dünyada yeni məzmun istiqamətini, modelini yarada bilmişdi.

Heydər Əliyev şəxsiyyətinin böyüklüyü və əzəməti ondadır ki, Onun düşüncələri də, əməli fəaliyyəti də təkcə bu günlə məhdudlaşmır, uzaq gələcəyə ünvanlanmış olur. Ona görə də xalqımızın bu günü və sabahı, inam və etiqadı, şərəf və şöhrəti, ümid və güvənc yeri olan Heydər Əliyev dünyəvi dəyərli bir insan, ölkə rəhbəri, hər bir məsələdə Onunla hesablaşmağa ehtiyac doğuran bir fenomendir. Tək özü üçün yaşamayıb, xalqa, millətə bağlı olmaq, Onun dərdsərini, ağrı-acısını duymaq və daşımaq, Onunla birlikdə gülmək, birlikdə sevinmək, ümummilli inkişafa, uğurlara, nailiyyətlərə gedən yolu işıqlandırmaq Heydər Əliyevin amalları, düşüncələri, həyat əqidəsi idi. O, böyük vətəndaş kimi düşünməyin simvolu idi, şəxsi səadəti ümummilli səadətə həsr olunmuş şəxsiyyət nümunəsi idi.

Müasir dövrümüzdə tərbiyə işinin təşkilində diqqət yetirilməsi zəruri olan məqamlardan biri Vətənə sədaqət və vətənpərvərlik hisslərinin aşılanmasıdır. Bu işdə Ulu Öndər Heydər Əliyev irsi, Onun həyat yolu ən dəyərli xəzinədir.

Doğrudan da, Ümummilli Liderimiz Heydər Əliyevin elə bir çıxışı, nitqi olmaz ki orada Azərbaycan tarixinin yenidən hazırlanması, milli-mənəvi dəyərlərimizə hörmətlə yanaşılmasını, hüquqi və müstəqil dövlətimizin əbədi-sönməz olması, onun ərazi bütövlüyünün göz bəbəyi kimi qorunması, sərhədlərimizin toxunulmazlığı, torpaqlarımızın erməni işğalçılarından müdafiə olunması ilə bağlı orijinal fikirlər söyləməsin.

Hər bir azərbaycanlının müqəddəs borcu və amalı doğma Vətəninə xidmət göstərməkdən, daim Vətənin mənafeyi naminə çalışmaqdan ibarətdir. Hər kəs öz əməli ilə, zəhməti ilə, öz işi və fəaliyyəti ilə Vətəni naminə çalışmağı barədə öz-özünə hesabat verməlidir. Əgər hər bir müəllim vicdanla çalışıb Vətənin gələcəyi olan gənc nəslin tərbiyəsinə ürəkdən yanaşırsa; Vətənin xidmətində duran əsgər ayıq-sayıqlıq, hərbi qaydalara əməl edilməsi, sərhədlərimizin qorunması yolunda sədaqətlilik göstərirsə; hər bir idmançı ölkəmizin bayrağını yüksəklərə qaldırırsa; ali məktəbdə təhsil alan hər bir gənc dünya elminin ən yaxşı ənənələrini və nailiyyətlərini qazana bilirsə, bu onun Vətənə olan xidmətinin nümunəsidir.

Vətən deyəndə, ilk növbədə, vətəndaşı olduğumuz doğma Azərbaycanın müstəqil dövlət kimi varlığı, ölkəmizin hərtərəfli inkişafı, mövcud ictimai-siyasi durumu və ən əsası, ölkənin tərəqqisi yolunda hər birimizin üzərinə düşən vəzifələri düzgün dərk etməmizlə bağlı kompleks məsələlər başa düşülür.

Dövlətçiliyə sədaqətin, Vətənə məhəbbətin və xalqa etibarlı zəmanətin nümunəsi kimi Ulu Öndərimiz Heydər Əliyevin vətənpərvərlik ideallarını, özünəməxsus aspektlərlə zəngin olan siyasi məktəbinin təhlil edilərək gənc nəslə çatdırılması dövrümüzün ən vacib tələblərindəndir. Təməli ailədə qoyulan vətənpərvərlik hissləri məktəbəqədər təhsil müəssisələrində inkişaf edir, ümumtəhsil məktəblərində sistemləşir, ali məktəblərdə isə daha təkmilləşmə yolu keçir. Bu gün gənc nəsil dahi şəxsiyyət Heydər Əliyevin həyat və iş təcrübəsini dərindən mənimsəməklə, öz gələcək inkişaf yolunu yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik humanist, sədaqətlilik idealları üzərində qurmalıdır.

Vətənə sədaqət hisslərinin təzahürü dahi şəxsiyyət Heydər Əliyevin ***“Heç kəsin şübhəsi olmasın ki, mən ömrümün qalan hissəsini Azərbaycanın müstəqil dövlət kimi inkişaf etməsinə sərf edəcəyəm”*** sözlərində əksini tapır. Bu fikirlərlə əsl vətənpərvərin Vətəninə olan məhəbbət və sədaqətinin nə qədər güclü olması duyulur. Azərbaycanın müstəqilliyinə mane olmağa çalışan daxili və xarici düşmənlərə ***“Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir, sarsılmazdır”, “Azərbaycan dövlətçiliyinin, müstəqilliyinin keşiyində bir vətəndaş kimi də durmuşam, duracağam və bu yolda hər dəqiqə, hər gün şəhid olmağa hazıram”*** söyləyən dahi şəxsiyyət dövlətinə sədaqəti, millətinə sevgisini dilə gətirir.

Heydər Əliyev şəxsiyyətinin Vətənə sədaqət hisslərini öyrənərkən, Onun milli-mənəvi dəyərlərimizə olan hədsiz məhəbbətini, xalqımızın adət-ənənələrinə, dilimizə, dinimizə olan qayğısını mütləq qeyd etməliyik. Heydər Əliyev vətənpərvərlik məktəbinin əsas qayəsi məhz Onun Azərbaycan xalqının nəcib əxlaq keyfiyyətlərinə olan dərin sevgisi, əsl azərbaycanlıya xas olan mərdlik, məğrurluq, qürur, qeyrət, namus və vicdan hisslərinin daim yüksəkdə tutulması, xalqımızın qədim tarixi və mədəni irsinə olan hörmətidir.

Ölməz şəxsiyyət Heydər Əliyevin bütün fəaliyyəti Azərbaycan xalqının mənafeyinə yönəlmişdir. O istər təsərrüfat, istər sənaye, istər iqtisadiyyat, istər mədəniyyət və mənəviyyat, istər elm və təhsil sahələrinin, bütövlükdə, həyatın bütün sahələrinin inkişafına var qüvvəsi ilə çalışmış, yalnız bir amala xidmət etmişdir. O da xalqın mənafeyi, əhalinin rifahı olmuşdur.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin tövsiyələrini rəhbər tutmaq, həyat yolunu öyrənmək və böyüyən nəsilləri bu nümunə əsasında tərbiyə etmək hər bir vətəndaşımızın mənəvi borcu olmalıdır. Ulu Öndərin daxili aləmində, əməlində, sözündə, fikir və humanistliyində, əqidəsində xalqına və Vətəninə bağlılığını əks etdirən müdrik keyfiyyətlərini gələcəyimiz olan övladlarımızın ruhuna, canına və qanına hopdurmaq lazımdır ki, xalqın və ölkənin gələcək taleyi etibarlı əllərdə olsun. Onun mənalı ömür yolunu, ideyalarını, zəngin irsini öyrənməli və öyrətməliyik. Dahi rəhbərin dövlətçilik, Azərbaycançılıq, vətəndaşlıq haqqında fikirlərini mənimsəməli, irəli sürdüyü ideyaları sevməli, yaşatmalıyıq. Heydər Əliyev təlimini öyrənməklə, qarşıya çıxan problemlərin həllində bu xətti tətbiq etməyi bacarmaqla, bu ideallar ətrafında sıx birləşmək, həmrəylik göstərməklə indiki işlərimizi düzgün qura, işıqlı gələcəyimizi müəyyənləşdirə bilərik.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ölkəmizdə 2023-cü il “Heydər Əliyev İli” elan edilmişdir. Sərəncamda da qeyd edildiyi kimi: ***“Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, Onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir”.***

Sərəncamdan irəli gələn Tədbirlər Planında yerinə yetirilməsi nəzərdə tutulan tədbirlər sırasında təhsil müəssisələrində “Heydər Əliyev dərsləri”nin keçilməsi yetişməkdə olan nəsillərin Ulu Öndərimizin həyat və fəaliyyəti nümunəsində vətənpərvərlik və Vətənə sədaqət tərbiyəsinin düzgün və məqsədyönlü təşkili baxımından mühüm vasitədir. Bu dərslər Ümummilli Lider Heydər Əliyevin həyat fəaliyyətinin və irsinin öyrənilməsində geniş imkanlar yaradacaq, məktəblilərdə Ulu Öndər haqqında bilikləri zənginləşdirəcək, yetişən nəsillərin vətənpərvərlik və Vətənə sədaqət tərbiyəsinin dərinləşməsini təmin edəcəkdir.

Ulu Öndərin vətənpərvərlik və Vətənə sədaqət tərbiyəsi konsepsiyasını geniş və hərtərəfli şəkildə yaymaq məqsədilə kütləvi informasiya vasitələrində təbliğatın aparılması, dövri və pedaqoji mətbuatda materialların, geniş müzakirələrin verilməsinə ciddi ehtiyac vardır.

Hər bir millətin gələcəyi indi yetişən nəsildən asılıdır, onların ağıllarından, mənəviyyatından, ideallarından və bu ideallara sadiqliyindən, inamlarından asılıdır. Yetişən nəslin düzgün istiqamətləndirilməsi gələcəyin düzgün qurulması deməkdir. Müasir Azərbaycan dövlətçiliyinin təməl daşını qoymuş və möhkəm özülünü yaratmış dahi şəxsiyyət Heydər Əliyevin ideya dünyası Onun davamçılarının yoluna həmişə işıq salacaq, Günəş kimi əbədi şölələnəcəkdir. Ona görə də bu təlimin mahiyyətini, həyati zəruriliyini yetişən nəslə, ümumtəhsil məktəbləri şagirdlərinə çatdırmaq, onlara bu ideallarla yaşamağın qanunauyğunluqlarını dərk etdirmək uzun illər ərzində öz milli-mənəvi dəyərlərindən ayrı salınmış bir xalqın özünəqayıdış və özünüdərkini Ulu Öndər Heydər Əliyev irsi nümunəsində tərbiyə etmək çox mühüm vəzifə olmalıdır.

**Lalə ALLAHVERDİYEVA**
***Naxçıvan Müəllimlər İnstitutunun pedaqogika və psixologiya kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru***

## *“Dövlət gənclər siyasəti: Heydər Əliyev və müasir gənclik”* mövzusunda tədbir keçirilib



*Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 1999-cu il 17 dekabr tarixli qətnaməsi ilə 12 avqust Beynəlxalq Gənclər Günü elan edilmişdir. Bu münasibətlə avqustun 11-də Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun birgə təşkilatçılığı ilə tədbir keçirilib.*

Tədbirdə Müvəkkil aparatının şöbə müdiri Asiman Abbasov və Gənclər Fondunun şöbə müdiri Arzu Qasımov giriş sözü ilə çıxış edərək Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət gənclər siyasətindən, gənclərin cəmiyyətin müxtəlif sahələrində iştirakının yüksək səviyyədə təmin edilməsi sahəsində həyata keçirilmiş tədbirlərdən danışıblar.

Sonra Müvəkkil aparatının əməkdaşı Türkan Gülməmmədlinin “Azərbaycan gənclərinin himayədarı – Ulu Öndər Heydər Əliyev”, Gənclər Fondunun əməkdaşı Tural Məmmədzadənin “Heydər Əliyevin gənclər siyasətində dünyəvilik və mənəvi dəyərlərin qorunması”, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşı Əli Bayramlının “Həssas qrupdan olan gənclərin hüquqlarının müdafiəsi istiqamətində görülən işlərin təhlili”, Gənclər və İdman Nazirliyinin əməkdaşı Valeh Mahmudovun “Muxtar respublikada dövlət gənclər siyasəti: görülən işlər və perspektivlər” mövzularında çıxışları dinlənilib.

Sonda videoçarx nümayiş etdirilib.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## Vətəndaş qəbulu olub



Avqustun 11-i Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayevin qəbul günü olub. Şuranın sədri qəbula yazılan vətəndaşlarla ayrı-ayrılıqda söhbət edib, onların sanatoriya yollayışı, maddi yardım, sovqat yardımı, əmək, sosial-iqtisadi mənafelərinin müdafiəsinə dair şikayətləri ilə bağlı məsələləri dinləyib. Şəhid ailə üzvləri və qazilər növbədənkənar qəbul edilib.

Qəbula yazılan 27 nəfərdən 2-si şəhid ailəsi üzvü, 1-i qazi olmaqla, 24 nəfər aztəminatlı ailə üzvlərinin şikayətləri dinlənilib. Şuranın sədri Qəzənfər Abdullayevin tapşırığına əsasən bəzi məsələlər yerindəcə həll olunub, bir çox məsələlərin həlli üçün isə lazımi tapşırıqlar verilib. Qəbula gələn vətəndaşlar dövlətimizə minnətdarlıq ediblər.

## Abituriyentlərin ixtisas seçiminə kömək məqsədilə dəstək mərkəzləri yaradılıb

Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi tərəfindən abituriyentlərin ixtisas seçiminə kömək məqsədilə şəhər və rayon təhsil şöbələrində dəstək mərkəzləri yaradılıb. Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, mərkəzlərdə ödənişsiz məsləhət xidməti, ixtisaslar haqqında məlumat və peşəkarlar tərəfindən ixtisas seçiminə dəstək göstəriləcəkdir.

**Xəbərlər şöbəsi**

*Ölkəmizin nüfuzlu universitetlərindən sayılan Naxçıvan Dövlət Universitetinin tələbə və müəllim kontingenti sürətlə böyüyür. Əvvəlcə Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyi universitetin tabeliyinə, bu yaxınlarda isə Naxçıvan Dövlət Texniki Kolleci və Naxçıvan Tibb Kolleci Azərbaycan Elm və Təhsil Nazirliyinin Naxçıvan Dövlət Universitetinin nəzdinə verilib. Əlbəttə ki, qəbul edilən qərarların təhsilimizin inkişafı baxımından mühüm əhəmiyyəti vardır. Bu haqda Naxçıvan Dövlət Universitetinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru Arzu Abdullayev bizi ətraflı şəkildə məlumatlandırdı.*

**Təhsil millətin gələcəyidir**

# Arzu Abdullayev: "Təhsilin mərhələli şəkildə bir universitet daxilində aparılması beynəlxalq təcrübə baxımından da zamanın tələbidir"



***– Arzu müəllim, ölkə başçısının müvafiq Sərəncamı ilə qəbul edilən Dövlət Proqramında Naxçıvan Dövlət Universiteti ilə də bağlı qarşıya mühüm vəzifələr qoyulub. İstərdik ki, əvvəlcə bununla bağlı məlumat verəsiniz.***

– Naxçıvan Dövlət Universiteti nəinki ölkəmizin ali məktəbləri, həm də dünya universitetləri sistemində yüksək nüfuzu, hərtərəfli inkişafı, yüksəkixtisaslı kadrların hazırlanması sahəsindəki fəaliyyəti ilə tanınır. Təsadüfi deyildir ki, universitetimiz bir sıra sahələr üzrə ali təhsil müəssisələri arasında öncül yerləri tutub, onun fəaliyyəti təqdir olunub, klassik universitetlərlə müqayisə edilib, regionun elm və təhsil mərkəzlərindən biri kimi nüfuz qazanıb. Burada inkişaf etmiş ali təhsil müəssisələri üçün xarakterik sayılan bütün struktur bölmələr yaradılıb, ilk dəfə müxtəlif yeniliklər tətbiq olunub və onların səmərəli fəaliyyəti təmin edilib. Bunu universitetin beynəlxalq əməkdaşlıqlarının dinamik olaraq davamlılığında, iqtisadi, sosial, tibbi və digər mövzular üzrə ortaq elmi araşdırmaların uğurla həyata keçirilməsində, elmi konfransların təşkil olunmasında, eyni zamanda daha mütərəqqi layihələrin reallaşmasında daha açıq şəkildə görmək olar. Naxçıvan Dövlət Universiteti 3 ildir ki, Böyük Britaniyanın "Times Higher Education", "Impact Rankings" reytinq cədvəlində dünyanın ən yaxşı universitetləri arasında yer alır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda Naxçıvan Dövlət Universitetinin də qarşıdakı mərhələlər üzrə perspektivləri müəyyən olunub. Universitetin tədris imkanlarının daha da etibarlı qaydada şaxələndirilməsi, ixtisaslaşma proseslərinin təkmilləşməsi və ali məktəblərarası qarşılıqlı əməkdaşlıqlar mühüm məsələ olaraq müəyyən edilib. Qarşıya qoyulmuş əhəmiyyətli məsələlərdən biri də Naxçıvan Dövlət Universitetində ingilisdilli Tibb fakültəsinin, tibbi tədqiqat klinikasının yaradılmasından ibarətdir. Naxçıvan Dövlət Universiteti yüksək bilikli və bacarıqlı, innovativ tədqiqat vərdişlərinə yiyələnmiş, təcrübəyə malik olan mütəxəssislərin hazırlanmasını missiya olaraq müəyyənləşdirib ki, bu həm də tabeliyində olan qurumların fəaliyyət istiqamətlərini müəyyən edəcək.

***–Yuxarıda adıçəkilən təhsil müəssisələrinin universitetin tabeliyinə verilməsinin əhəmiyyəti nədən ibarətdir?***

–Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli Qərarı ilə Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseyin Naxçıvan Dövlət Universitetinin tabeliyinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 iyul 2023-cü il tarixli Qərarı ilə Naxçıvan Dövlət Texniki Kolleci və Naxçıvan Tibb Kolleci Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Naxçıvan Dövlət Universitetinin nəzdinə verilib.

Bilirik ki, bu gün dünya təcrübəsində də geniş profilli və həmçinin tədqiqat yönümlü universitetlərin tabeliyində orta məktəblər, liseylər, kolleclər mövcuddur. Dünyanın aparıcı universitetlərinin tərkibində kolleclərin fəaliyyət göstərməsi ənənəsi var. Hətta həmin kolleclərin təhsil proqramları da nəzdində yerləşdikləri ali məktəblərin proqramlarına yaxındır. Bu isə kollecdə oxuyan tələbələrin daha yaxşı təhsil almasına gətirib çıxarır. Və bu hazırda da geniş əhəmiyyətə malikdir. Son illər ölkə ali təhsilinə də diqqət etsək, universitetlərin tabeliyində yeni-yeni kolleclər və orta məktəblər yaradılır. Hətta bu gün sevindirici haldır ki, bir çox özəl ali təhsil müəssisələrinin tabeliyində beynəlxalq orta məktəblər də fəaliyyət göstərir. Bu bir çox cəhətdən əhəmiyyətlidir: birincisi, kolleclər ixtisas proqramları əsasında təhsil xidmətləri göstərir; ikincisi, subbakalavr peşə-ixtisas dərəcəsi vermək hüququna malikdir, üçüncüsü, universitetlərin müxtəlif ixtisasları üçün ilkin baza roluna malikdir. Hətta bəzi universitetlər özlərinə tələbə kadr ehtiyatını məhz öz tərkiblərində fəaliyyət göstərən kolleclərdən və orta məktəblərdən seçirlər. Bu gün ali təhsildə kəmiyyət və keyfiyyət balansını qurmaqla beynəlxalq rəqabətlilik strategiyasını həyata keçirən, çoxprofilli ixtisaslara sahib olan Naxçıvan Dövlət Universiteti tədrisin keyfiyyətinin və elmi fəallığının artırılmasını, insan kapitalının formalaşdırılmasını üstün tutaraq "Tədqiqat" və uzaq gələcəkdə "Sahibkar" universitet statusu qazanma yolunda inamla addımlayır. Bu baxımdan istər liseyin, istərsə də kolleclərin Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilməsi öncə dövlətin yüksək diqqət və qayğısının təzahürüdür. Bu baxımdan dövrün tələbi də nəzərə alınmaqla verilən qərarlar tarixi əhəmiyyətə malikdir.

***– Bu addım gələcəkdə universitetə hansı imkanları qazandıracaq?***

– Təbii ki, suala iki cəhətdən yanaşmalıyıq. Bu, universitetə yeni imkanlar qazandırmaqla yanaşı, həmin təhsil ocaqları və orada təhsil alan gənclər üçün geniş imkanlar açacaq. Eyni zamanda universitetlər üçün yüksəkixtisaslı kadrların yetişdirilməsi baxımından böyük əhəmiyyəti var. Bu, bir tərəfdən resurslardan daha faydalı istifadəni təmin edəcək, digər tərəfdən, orta ixtisas təhsili müəssisələrində təhsilin keyfiyyətinin və onlara marağın artırılmasına səbəb olacaq.

Kolleclərin universitetlərin nəzdinə keçirilməsi təhsil sisteminin dünyaya inteqrasiyasıdır. Universitetlərin orta məktəbi, kolleci, peşə məktəbi, laboratoriyası və sair var. Ona görə də kolleclərin universitetlərə birləşdirilməsi təbii haldır və zamanın tələbidir. Bu həm də yarımçıq təhsilin qarşısını alır. Bu sistemə keçidin özəlliklərindən biri də kolleci yüksək qiymətlə bitirənlərin sonradan həmin müəssisədə ali təhsil almaq imkanının olmasıdır. Kolleci bitirəndən sonra həm işləyib, həm də kolleci yaxşı qiymətlə başa vurubsa, universitetdə təhsil ala biləcək. Hər bir universitetin öz tərkibində kollec yaratmaq ixtiyarı var. Dünyanın heç yerində ayrıca ixtisas məktəbi yoxdur. Təcrübədən də görünür ki, onlar daha çox universitetlərin nəzdində olur. Təbii ki, kampusları, böyük şəraiti olan universitetlər bu iş üçün daha yaxşıdır. Təhsilin mərhələli şəkildə bir universitet daxilində aparılması müsbət haldır. Avropa, Qərb təcrübəsində bu sistem geniş yayılıb. Bu cür sistem kolleclərdə təhsilin keyfiyyətinə də müsbət təsir göstərir. Əgər kollec universitetin nəzdindədirsə, universitetin potensialından da istifadə edilir, daha yüksək səviyyəli mütəxəssislər oraya cəlb olunur.

Təhsilin inkişafı üzrə dövlət strategiyasında da təhsilin yeni keyfiyyət mərhələsinə keçid var. Orada dünya təcrübəsinin öyrənilməsi və inteqrasiyanın sürətlənməsi nəzərdə tutulur.

***– İmtahan və qəbul prosesi necə aparılacaq?***

– Bu gün üçün kolleclərdə qəbul qaydalarında hər hansı bir dəyişiklik nəzərdə tutulmur. Bildiyimiz kimi, qəbul prosesi ali məktəblərə olduğu kimi, kolleclərə də Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilir. Təbii ki, bu da şəffaflıq baxımından daha əhəmiyyətlidir. Ancaq kolleclərdə mövcud olan ixtisaslarla bağlı dövrün tələbinə və universitetin öz vizyonuna uyğun olaraq müəyyən dəyişikliklərin həyata keçirilməsinə, strukturun təkmilləşdirilməsinə ehtiyac var. Naxçıvan Dövlət Universitetinin tabeliyində olan Kimya-Biologiya Təmayüllü Lisey ilə bağlı isə, təbii ki, idarəetmədə və tədris prosesində yeniliklərin tətbiqi nəzərdə tutulur. Bu həm liseyin təyinatı ilə bağlı olacaq, həm də qəbul qaydaları və şərtləri ilə.

***– Kimya-Biologiya Təmayüllü Liseyə qəbul prosesi artıq aparılıb. Neçə şagird bu liseyə qəbul olunub?***

– Qeyd edim ki, lisey universitetin tabeliyinə verilmədən öncə bura sənəd qəbulu elan edilmiş və 450 nəfərə yaxın şagird imtahan üçün qeydiyyatdan keçmişdi. Bunu nəzərə alaraq bu il qəbul imtahanında əvvəlki ilin qəbul sayını, yəni 60 şagirdin qəbul olmasını gündəmdə saxlayaraq imtahan suallarında cüzi dəyişikliklə imtahan həyata keçirildi. Məlum olduğu kimi, cənab Prezidentin Sərəncamı ilə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda Naxçıvan Dövlət Universitetinin nəzdində ingilisdilli orta məktəbin yaradılması, xarici ölkələrin ali təhsil müəssisələri ilə əməkdaşlığın gücləndirilməsi, birgə proqramların təşkili, ali təhsil müəssisələrində yeni məzmunlu proqramların (SABAH, ingilisdilli tibb fakültəsi, tibbi tədqiqat klinikası və sair) tətbiq edilməsi də öz əksini tapıb. Bu baxımdan qısa vaxtda Kimya-Biologiya Təmayüllü Liseyinin təyinatı dəyişərək universitetin nəzdində ingilisdilli beynəlxalq məktəb yaradılacaq. Bununla bağlı lazımi görüşlər də keçirilib və beynəlxalq məktəbdə qısa vaxtda Cembirige proqramının qurulması nəzərdə tutulur. Məlumat üçün onu da bildirim ki, bu ilin sentyabrından beynəlxalq məktəbdə həm məktəbəqədər hazırlıq sinifləri üçün, həm də 5-ci siniflərdə təhsil alan şagirdlər üçün hazırlıq qrupları fəaliyyət göstərəcək. 2024-cü ildən artıq Beynəlxalq məktəbin 1-ci və 6-cı siniflərinə qəbul imtahanı keçiriləcək.

Naxçıvan Dövlət Universitetinin nəzdində yaradılacaq beynəlxalq məktəb gələcəkdə ali təhsil müəssisəsi ilə digər ölkələrin ali məktəbləri arasında əməkdaşlıqların gücləndirilməsi, birgə proqramların təşkil olunması, həmçinin universitetlərdə yeni məzmunlu proqramların tətbiqi üzrə layihələrin həyata keçirilməsini də mümkün edəcək. Əminliklə qeyd edə bilərik ki, Azərbaycan təhsil tarixində ilklərə imza atan Naxçıvan Dövlət Universitetinin beynəlxalq məktəbi də qısa zamanda təhsilin inkişafı istiqamətində öz layiqli töhfəsini verəcək.

***– Liseyə və kolleclərə qəbul olunan şagird və tələbələr də universitetdə yaradılan imkanlardan istifadə edəcəklər...***

– Bəli. Bu gün Naxçıvan Dövlət Universitetinin 108 hektarlıq ərazisində 13 tədris korpusu, Elektron Kitabxana, Konservatoriya, Sosial Xidmət Mərkəzi, Universitet Xəstəxanası, Olimpiya İdman Mərkəzi, 2 stadion və müasirtipli Tələbə Evi yerləşir. Universitetdə simsiz internet şəbəkəsindən istifadə olunur. Burada 3 internet mərkəzi, Media Mərkəzi, Universitet televiziyası (UTV), "Nuhçıxan" radiosu, "Qeyrət" nəşriyyatı, "Elmi əsərlər" jurnalı, "Yeni fikir" qəzeti və bir neçə muzey fəaliyyət göstərir. Eyni zamanda bu ali təhsil ocağında 12 fakültədə bakalavriat səviyyəsi üzrə 75 ixtisas, magistratura üzrə 85 ixtisaslaşma, doktoranturada 39 ixtisas və rezidentura üzrə 32 ixtisasda, ümumilikdə, 8000-ə yaxın, o cümlədən 9 ölkədən 1800 nəfərə yaxın xarici tələbə təhsil almaqdadır. Elmi axtarışların davamlılığı, əhatəliliyi və dinamikliyi sahəsində proseslərin daha da sürətləndirilməsinə təkan olaraq ölkə ali təhsilində ilk dəfə 2022-ci ildə Naxçıvan Dövlət Universitetində IELTS qeydiyyat və imtahan mərkəzi fəaliyyətə başlayıb. 2023-cü ildən isə universitetdə SAT qeydiyyat və imtahan mərkəzi yaradılıb. Bunları qeyd etməkdə məqsəd ondan ibarətdir ki, bu gün bu imkanlardan həm də beynəlxalq məktəb və kolleclər də faydalanacaq. Eyni zamanda ixtisasların daha dərindən öyrənilməsi, təcrübə üçün universitetin laboratoriya və tədqiqat mərkəzlərindən geniş istifadə ediləcək, daha yüksək səviyyəli mütəxəssislər oraya cəlb olunacaq.

***– Arzu müəllim, geniş müsahibə üçün sağ olun!***

**Güntac ŞAHMƏMMƏDLİ**

# Muxtar respublikada torpaqların su ehtiyatının yaxşılaşdırılması üçün işlər mütəmadi olaraq davam etdirilir

*Naxçıvan Muxtar Respublikasında 2023-cü ilin iyul ayı ərzində suvarma mövsümünü mütəşəkkil şəkildə davam etdirmək məqsədilə cəmiyyətin tabe idarələri tərəfindən kanal və arxlarda lildən təmizlənmə işləri, əkin sahələrində qrunt sularının səviyyəsini aşağı salmaq üçün müvafiq işlər görülmüşdür. Hidrotexniki qurğularda təmir işləri aparılmış, anbarlara suyun yığılması davam etdirilmiş, suvarma suyundan səmərəli istifadə olunması diqqət mərkəzində saxlanılmışdır. Belə ki, muxtar respublikanın mövcud su anbarlarında 2023-cü ilin iyul ayının sonuna 95,23 milyon kubmetr su ehtiyatı toplanmışdır. Su istifadəçilərinə iyul ayı 22,44 milyon kubmetr su verilmiş, bunun müqabilində 18 min 154 hektar torpaq sahəsi suvarılmışdır.*

2023-cü ilin iyul ayı ərzində 0,05 kilometr istiqamətləndirici bənd, 14,24 kilometr beton və torpaq kanallar, 26,82 kilometr ara arxlar, 1,5 kilometr kollektor lildən təmizlənmiş, 0,18 kilometr içməli su, 0,11 kilometr kanalizasiya, 0,1 kilometr suvarma boru xətləri çəkilmiş, 3,98 kilometr mövcud içməli su, 0,3 kilometr kanalizasiya, 0,65 kilometr suvarma boru, 1,9 kilometr təzyiqli boru xətlərində, 0,41 kilometr isə kaptajlarda təmir-bərpa işləri aparılmışdır.

Torpaq sahələrinin su ilə təminatının yüksəldilməsi və su itkisinin qarşısının alınması məqsədilə mövcud kanal və arxların ehtiyac olan hissələrində təmir-bərpa işlərinin aparılması davam etdirilmişdir. Torpaq sahələrinin şoranlaşmasının qarşısını almaq məqsədilə kollektorlar lildən təmizlənmişdir. Şərur rayonunun Püsyan kollektorunda 1,5 kilometr lildən təmizləmə işləri aparılmışdır. Görülən işlər nəticəsində Şərur rayonunda 18 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır.

Torpaq sahələrini və yaşayış məntəqələrini sel sularının zərərli təsirindən qorumaq məqsədilə Babək rayonunda Sirab selovunda 0,05 kilometr seləqarşı istiqamətləndirici bənd tikilmişdir.

Nasos stansiyalarında və təzyiqli boru xətlərində cari təmir işləri davam etdirilmişdir. Şərur rayonunda "Zeyvə-1", "Xələc", "Həmzəli-1", "Qorçulu", "Arpaçay-2" nasos stansiyalarının təzyiqli boru xətlərində 0,92 kilometr, Babək rayonunda "Araz-1", "Hacıvar", "Nehrəm" nasos stansiyalarının təzyiqli boru xətlərində 0,13 kilometr, Şahbuz rayonunun "Daylaqlı", "Əcəmi-1", "Əcəmi-2", "Yeni" nasos stansiyalarının və Şahbuz şəhər, Kolanı, Mahmudoba kənd subartezian quyularının təzyiqli boru xətlərində 0,18 kilometr, Culfa rayonunun "Culfa-1", "Gülüstan" nasos stansiyalarının təzyiqli boru xətlərində 0,12 kilometr, Ordubad rayonunun "Dəstə-2", "Əylis-3" nasos stansiyalarının təzyiqli boru xətlərində 0,3 kilometr, Sədərək rayonunun "Sədərək-2", "Sədərək-4" nasos stansiyalarının təzyiqli boru xətlərində 0,11 kilometr, Kəngərli rayonunun "Böyükdüz" nasos stansiyasının təzyiqli boru xəttində 0,04 kilometr, Naxçıvan şəhəri ərazisində olan "Azərbaycan" və "Qaraçuq-2" nasos stansiyalarının təzyiqli boru xətlərində isə 0,11 kilometr təmir-bərpa işləri aparılmışdır.

Naxçıvan şəhəri, Babək və Kəngərli rayonlarının 8300 hektar torpaq sahəsini suvarma suyu ilə təmin etmək üçün "Qaraçuq-1" nasos stansiyası ərazisində Araz su anbarından qidalanan yeni nasos stansiyasının tikintisi davam etdirilmişdir.

2023-cü ilin iyul ayı ərzində 9 kəhrizdə cari təmir işləri aparılmış, ay ərzində kəhrizlərdə 374 metr kürə təmizlənmiş, 14,3 metr saybənd hörülmüşdür. Suvarma və içməli su mənbəyi kimi istifadə olunan subartezian quyularının 8 ədədinə yeni nasos quraşdırılmaqla, 82-si təmir olunmuşdur.

Cəmiyyətin Texniki Nəzarət, Hidrotexniki Qurğuların və Subartezian Quyuların Təmiri İdarəsinin təmir sexi tərəfindən 15 su sayğacı, 2 elektrik mühərriki təmir edilmiş, 95 nasos hissəsi hazırlanmışdır.

"Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidənqurulması" layihəsi çərçivəsində Babək rayonunun Nehrəm qəsəbəsində içməli su və kanalizasiya şəbəkəsinin tikintisi davam etdirilmişdir. Ərazidə 53 evin içməli su xəttinə, 54 evin isə kanalizasiya xəttinə birləşmə aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

# Naxçıvan musiqi sənətinin sevilən siması

*Naxçıvanda musiqi sənəti bu günə qədər böyük yol keçmiş, inkişaf etmiş və neçə-neçə görkəmli musiqiçilər yetişdirmişdir. Bu musiqiçilər sırasında Yusif Əsgərovun imzası xüsusilə seçilir. Onu da qeyd etmək lazımdır ki, Naxçıvanda nəfəsli alətlərinin inkişaf etdirilməsində və təbliğ olunmasında Yusif Əsgərovun rolu danılmazdır.*



Yusif Əsgərov 11 avqust 1953-cü ildə Naxçıvan şəhərində anadan olub. 1960-1970-ci illərdə Naxçıvan şəhərindəki Əkbər Ağayev adına tam orta internat məktəbində orta təhsil alıb. Hələ uşaqlıq illərindən onun incəsənətə marağı oxuduğu məktəbin müəllimlərinin nəzərindən yayınmır. Məktəbdə və məktəbdənkənar tədbirlərdə fəal iştirak edən gənc Yusif onu tanıyanlarda gələcəkdə musiqiçi olacağına dair inamı artırır. Valideynlərinin məsləhəti ilə Yusif sənədlərini 1965-ci ildə Naxçıvan şəhər 1 nömrəli uşaq musiqi məktəbinə verir və orada bəstəkar, dirijor Məmməd Məmmədovun sinfində akkordeon və truba – iki ixtisas üzrə ilk musiqi təhsilini alır. 1970-ci ildə musiqi məktəbini müvəffəqiyyətlə bitirən Yusifin qabiliyyət və bacarığı, musiqiyə olan həvəsi bəstəkar Məmməd Məmmədovun diqqətini cəlb etdiyindən onu 16 yaşında (o vaxt 8-ci sinifdə oxuyurdu) Naxçıvan teatrının musiqi hissəsinə akkordeon və truba ifaçısı kimi dəvət edir. Elə o vaxtdan da Yusif Əsgərov həyatını Naxçıvan teatrına bağlayır. Teatrda çalışdığı ilk gündən gənc Yusif bəstəkar M.Məmmədovun etimadını doğruldur. Teatrda işləyə-işləyə o, 1975-1976-cı illərdə Moskvada İncəsənət Universitetinin başlanğıc nəzəriyyə kursunu bitirir. Qabiliyyət və işə münasibətini nəzərə alaraq teatr rəhbərliyi Azərbaycan Respublikasının Əməkdar artisti, teatrın baş rejissoru Vəli Babayevin təqdimatı ilə 1977-ci ildə onu musiqi hissə müdiri və dirijor vəzifəsinə təyin edir. Elə o vaxtdan da Yusifin dirijorluq fəaliyyəti başlayır.

Tanınmış musiqiçi Yusif Əsgərov 1978-1979-cu illərdə Moskva Ümumittifaq Mədəniyyət İşçilərinin İxtisasartırma İnstitutunda simfonik orkestrin dirijorluq kursunu keçir. Burada o, görkəmli mütəxəssislərin – Böyük Teatrın bədii rəhbəri və baş dirijoru, RSFSR-in Əməkdar artisti Yuri Simonov, Böyük Teatrın dirijoru Fuad Mansurov və SSRİ Akademik Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru, SSRİ Xalq artisti Yevgeni Svetlanovun yanında təcrübə keçir. İstər təhsil aldığı illərdə, istərsə də ixtisasartırma kursunda aldığı bilik və təcrübə Naxçıvan teatrının orkestrin inkişafında mühüm rol oynayır. Qeyd etmək lazımdır ki, Yusif Əsgərov Naxçıvan teatrında bir çox musiqili komediya və operettalarda orkestrin dirijoru kimi çıxış etmişdir. O, teatrda çalışdığı müddətdə daim öz üzərində işləyir, musiqi təhsilini artırmaq üçün yollar axtarırdı. Məhz bu səbəbdən də 1981-1986-cı illərdə Soltan Hacıbəyov adına Sumqayıt Orta İxtisas Musiqi Məktəbinin Nəfəs alətləri şöbəsində qiyabi olaraq təhsil alır, burada Azərbaycan Dövlət Sirkinin bədii rəhbəri və baş dirijoru Həsən Abdullayevdən orkestr və dirijorluq sənətinin sirlərini öyrənir. 1986-1990-cı illərdə isə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının Nəfəs alətləri şöbəsində təhsilini davam etdirir. O, görkəmli musiqiçilərdən – Azərbaycan Dövlət Nəfəs Alətləri Orkestrinin bədii rəhbəri və baş dirijoru, dosent Vaqif Süleymanov, Azərbaycan Dövlət Simfonik Orkestrinin solisti, dosent Elxan Rüstəmov və bəstəkar-dirijor Həsən Rzayevdən dərs alır.





Yusif Əsgərovun fəaliyyəti təkcə teatrla məhdudlaşmır. Vaxtilə Naxçıvan şəhər tam orta internat, 30 nömrəli dəmiryol tam orta məktəbində və Culfa şəhər musiqi məktəbində nəfəs alətləri orkestri yaradaraq həmin orkestrlərin bədii rəhbəri və dirijoru olmuşdur. Yusif müəllim muxtar respublikanın müxtəlif musiqi məktəblərində pedaqoji fəaliyyətlə də məşğul olub. O, 1985-ci ildə yenidən Naxçıvan şəhərində Məmməd Məmmədov adına 1 nömrəli uşaq musiqi məktəbində Nəfəs alətləri şöbəsini açır və uzun illər burada truba, trambon, qaboy, fleyta ixtisasları üzrə musiqiçilər yetişdirir.

Onun yetirmələrindən bir çoxu musiqi məktəblərində, eləcə də Naxçıvan Dövlət Universitetində Yusif müəllimlə çiyin-çiyinə fəaliyyət göstərir. Ondan nəfəs alətləri ixtisası üzrə dərs almış ifaçılar hazırda Naxçıvan Dövlət Universitetinin Simfonik və nəfəs alətləri orkestrində, Naxçıvan Dövlət Filarmoniyasının estrada orkestrində, hərbi orkestrlərdə və musiqi məktəblərində çalışırlar. Yusif Əsgərov bir müəllim kimi öz təcrübəsini şagirdlərindən heç vaxt əsirgəməyib. O, musiqimizin keşiyində duran, onu xidmətləri ilə daha da rövnəqləndirən əsl vətənpərvər və bacarıqlı bir sənətkar kimi özünü təsdiqləyib. Xüsusilə qeyd etmək lazımdır ki, 2007-ci ildə Yusif Əsgərovun şagirdlərindən Həmid Əsgərov, Fərman İbrahimov ölkə üzrə Bakı şəhərində keçirilən müsabiqədə iştirak ediblər və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin diplomlarına və mükafatlarına layiq görülüblər. Bacarığı, işgüzarlığı iləYusif Əsgərov bu gün də öz doğma peşəsinin öhdəsindən şərəf və ləyaqətlə gəlir. Hazırda Yusif Əsgərov Naxçıvan Dövlət Universitetinin Orkestr alətləri və dirijorluq kafedrasının Nəfəs alətləri orkestrinin dirijorudur və Musiqi Kollecində müəllim kimi fəaliyyət göstərir. Yusif müəllim ixtiyar yaşında gənclik həvəsi ilə gənc nəslə öz zəngin həyat və sənət təcrübəsini öyrətməkdədir. Tanınmış musiqiçi, gözəl pedaqoq Yusif müəllimi 70 yaşının tamam olması münasibətilə ürəkdən təbrik edir, yeni-yeni yaradıcılıq uğurları, möhkəm cansağlığı, uzun ömür arzulayırıq.

**Elvira RZAYEVA**
***Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin Orkestr alətləri və dirijorluq kafedrasının baş müəllimi, Prezident mükafatçısı***

*Naxçıvan mətbəxi*

# Ordubadın ləziz təamları

*Bu qədim yurd yerinin əsrarəngiz gözəllikləri, dillər əzbəri olan mətbəx nümunələri, səs-sədası dünyanın müxtəlif ölkələrinə qədər gedib çıxan dadlı-tamlı meyvələri, ətirli limonu onu tarixən meyvəçilik diyarı olaraq tanıdıb. Təsadüfi deyil ki, bu qədim yurd yeri bəzi tarixi mənbələrdə “Bağlar diyarı” adlandırılıb. Sözügedən bölgəmiz Ümummilli Lider Heydər Əliyevin “Azərbaycanın incisi” adlandırdığı Ordubad rayonudur. Bir çox gözəllikləri özündə cəmləşdirən bu rayon bağçılığı, bostançılığı qədər dillərə dastan olan mətbəxi, zəngin süfrə mədəniyyəti ilə də şöhrət qazanıb. Bu diyarın təmiz havası, dupduru suları, əsrarəngiz təbiəti, bitki örtüyü özünü mətbəx nümunələrində də açıq-aydın göstərir.*

Milli mədəniyyətimizin daşıyıcılarından biri olan Ordubad kulinariyası bir-birindən ləziz təamlarla zəngindir. Bu zənginliyi yaradan isə, sözsüz ki, milli mətbəximizin hər fəsil üçün xarakterik olan yeməkləridir. Məhz bu mövzuda oxucularımızı da məlumatlandırmaq üçün üz tuturuq yurdumuzun bu bölgəsinə, qədimlik və müasirliyin çiyin-çiyinə addımladığı Ordubad rayonuna...

Ordubad mətbəxində bir sıra təamlar mövcuddur. Ordubad qayğanağı, cəvizli dürməyi, qovurması, maş şorbası, daş küftəsi, gupa dolması, qurut və qurut aşı, sucuq və özünəməxsusluğu ilə seçilən bir çox dadlı təamlar... Lakin xüsusi olaraq vurğulamaq istərdim ki, bu dadlı-tamlı mətbəx nümunələri hər bir bölgəmizdə bişirilsə də, Ordubad sakinlərinin, ələlxüsus da, bu işdə təcrübə qazanmış ordubadlı xanımlarımızın fərqli hazırlama qaydaları var. Ordubad şəhər sakini ***Səbahət Mehdiyeva*** ilə bu mövzuda həmsöhbət olub, yeməklərin hazırlanma qaydası ilə yaxından tanış olduq.

Müsahibimiz əvvəlcə xəmir xörəklərindən olan Ordubad qutabının hazırlanma üsulundan danışdı. Həmsöhbətimizin dediklərindən: – Ordubad qutabı bu bölgədə daha çox təndirdə bişirilir. Xəmir adi qutabda olduğu kimi, hazırlanır, xırda kündələrə ayrılır, lavaş formasında yayılır. Müxtəlif göyərtilərdən – çoban kirmiti, cincilim, gicitkən, quzuqulağı, quşəppəyi və digər bitkilərdən içlik hazırlanır. Zövqə görə içliyə soğan və pendir də əlavə olunur. İclik hazır lavaşın içinə yerləşdirilib dördbucaq şəkildə bükülür. Bükülmüş hissələrin üstündə qalacaq formada üzərinə yumurta çəkilir və təndirdə bişirilir. Ordubad sakinləri bu ləziz təama “xitab” da deyirlər.



“Digər ləziz yeməklərdən biri isə milli mətbəximizin dolmasıdır”, – deyən müsahibimiz bizə bu barədə də ətraflı məlumat verdi. 30-dan çox növü ilə mətbəximizdə xüsusi yer tutan bu yemək növü yarpaq dolmaları və doldurma dolmalar olmaqla, iki yerə bölünür. Ordubadımıza məxsus olan ən məşhur soğan dolmasında isə qaynadılmış, başı kəsilib, içi çıxarılıb içliklə doldurulan iri soğanlardan istifadə olunur. Süfrəyə verdikdə üstünə xörəyin öz şirəsindən tökülür və yanına darçın qatılmış qatıq qoyulur. Soğan dolması ləziz dadı ilə insan orqanizmi üçün çox faydalıdır.

Səbahət xanım bildirir ki, qurut da Ordubadın ləziz təamlarındandır. Qurutu hazırlamaq üçün yay aylarında qatıq və ya ayran torbada qatılaşanadək süzülür. Sonra həmin süzməni duz vurularaq yumru topalar formasında gündə qurudurlar. Qurutu uzun müddət saxlamaq olur. İstifadə zamanı qurut isti su ilə yuyulub təmizlənərək məhlul halına salınır. Bu məhluldan zövqə görə sarımsaqlı və ya sarımsaqsız istifadə etmək olar. Alınmış məhlulu xəngəl, əriştə və digər xörəklərə də əlavə edirlər. Qurutdan qurut aşı da bişirilir, pendir kimi də istifadə edilir.



Səbahət xanımdan hazırlanması çətin və xüsusi səriştə tələb edən yeməklər barədə də danışmasını xahiş edirik. Müsahibimiz bu barədə deyir: – Gupa Ordubad bölgəsinə xas olan yeməklər arasında özünəməxsus yerə malikdir. Hazırlanması xüsusi bacarıq, diqqət və səbir tələb edən bu yemək, necə deyərlər, xanımın əl qabiliyyətindən də xəbər verir. Belə ki, inəyin, ya da qoyunun qarnından hazırlanan həmin yemək bu bölgədə süfrələrin bəzəyidir. Yuyulub təmizlənmiş qarın çox da balaca olmayan hissələrə ayrılır və içinə ləpə, düyü, duz, istiot, sarıkök, sarıçiçək doldurulub iynə-sapla tikilir. Suda xeyli qaynayıb bişdikdən sonra ipləri boşalır və əlimizlə çəkməklə həmin tikişlər açılır, yemək yeyilir.

Ocaq üzərində qaynayan xörəkdən ətrafa yayılan xoş qoxu da diqqətimizdən yayınmır. Səbahət Mehdiyeva qonaqları üçün bişirdiyi maş şorbasının hazırlanması prosesindən də danışır. O deyir ki, maş şorbasını hazırlamaq üçün əvvəlcə qurudulmuş lobya təmizlənir, yuyulur, su ilə birlikdə qazana tökülür. Su qaynayana qədər ocaq gur vəziyyətdə olur, sonra isə bir qədər zəiflədilir. Yarım saatdan az olmamaq şərti ilə qaynadıqdan sonra suyu dəyişdirilir. Bəziləri həmin suyu dəyişmirlər, bu düzgün deyil. Çünki belə etdikdə yeməkdə xoşagəlməz dad yaranır. Mütləqdir ki, çıxan qara suyun yerinə əvvəlki ölçüdə təmiz su tökülsün. Orta temperaturda qaynayan yeməyə miqdarından asılı olaraq balaca soğan, qovurma, kartof, alça qurusu və zövqə görə duz, istiot əlavə edilir. Yeməyin kartofu bişənə yaxın tomat və nanə qurusu əlavə edilir. Bəziləri bu yeməyi hazırlayarkən kartofla birgə 5-6 ədəd cəviz ləpəsi və heyva dilimindən də istifadə edir ki, buna “heyva-qələ” deyirlər.

Şirin təamları ilə də tanınan Ordubad haqqında xalq arasında belə bir deyim var: – Bu rayonun istənilən yerinə qonaq olub çay içdinsə, yemək yeməyə yer qalmır. Çünki zəngin şirniyyat çeşidləri ilə də bu rayon digər bölgələrimiz arasında bir nümunədir. Şirniyyatları içərisində xüsusilə seçilən isə sucuqdur. Müsahibimiz sucuğun hazırlanması barədə də məlumat verir. Onun söylədiklərindən: – Sucuğun hazırlanması üçün yaş cəvizdən istifadə edilir. Cəvizin ləpələri yaş-yaş sapa düzülərək qurudulur. Un, şəkər tozu, doşab qarışığından bişirdiyimiz bulamac bir qədər soyudulur. Sapa düzülmüş cəviz ləpəsi bir neçə dəfə bulamaca batırılıb çıxarılır. Sonra qurutmaq üçün ipdən asılır. Sucuq elə yerdə saxlanılmalıdır ki, həmin yerdə rütubət olsun. Çünki bu, sucuğun yumşaq qalmasına kömək edir. Onun yumşaq qalması üçün həmin qarışığı düyü unundan da hazırlamaq olar. Onu da qeyd edim ki, Ordubadın çox yerində bu ləziz təama sucuq yox, “basdıq” deyilir.

Səmimi münasibəti, qonaqpərvərliyi ilə bizi qarşılayan Səbahət xanıma təşəkkür edib evdən ayrılırıq. Ordubadı tanıyan insanlar mümkün deyil ki, buraya ilk ayaq basdıqda nəyəsə təəccüblənməsin. Və mütləq aldığı təəssüratlar onu uzun müddət tərk etməyəcək. Elə bu diyarın zəngin mətbəxində gördüklərimiz kimi...

*Əziz oxucularımız! Biz sizə gördüklərimizdən danışdıq. İstərdik ki, yazımızda haqqında danışdıqlarımızı özünüz də görəsiniz! Necə deyərlər, yüz eşitməkdənsə, bir dəfə gedib görmək yaxşıdır...Ordubad qonaqpərvər yerdir, yolunuzu gözləyir.*

✍ **Sürəyya QƏDİMƏLİYEVA**

## İki Naxçıvan şahmatçısı mükafatçılar sırasında




Qubada “Məmmədyarovlar kuboku 2023” adlı beynəlxalq şahmat festivalı keçirilib. Ümumi mükafat fondu 10 000 manat olan turnirdə müxtəlif yaş qruplarına mənsub şahmatçılar olmaqla A və B qrupları üzrə 150 şahmatçı qələbə uğrunda mübarizə aparıb.

Naxçıvan Şahmat Mərkəzinin şagirdləri yarışda uğur əldə etməyi bacarıblar. B qrupunda yarışan Turan Mirzəyev 9 oyuna 6,5 xal toplamağı bacarıb. Bu nəticə ilə 120 şahmatçı arasında 7-ci olan Turan pul mükafatı və diplomla təltif olunub. Həmin qrupdakı digər təmsilçimiz Uğur Mirzəyev isə 6 xallıq göstərici ilə 12 yaş kateqoriyasında birinci olub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 478